# DAXİLİ İŞLƏR NAZİLİYİNİN DƏFTƏRXANASINDAN ERMƏNİLƏR VƏ ERMƏNİSTAN RESPUBLİKASININ QOŞUNLARI TƏRƏFİNDƏN QARABAĞIN MÜSƏLMAN ƏHALİSİ ÜZƏRİNDƏ TÖRƏDİLƏN ZORAKILIQLAR BARƏSİNDƏ ÇIXARILIŞ

**(80№-li işdən 1918., Dördüncü bölmə.)**

1.Ermənilər tərəfindən Molla vilayətlilərin bütün mal-qarasının qovulub aparılması və çoban Əsgər xanın əsirliyə alınması haqqında Gəncə qəzasının Zeyvə icmasının kəndxudası Kərim Əliyə Məmmədoğlunun raportu.

2.Ermənilərin burada (Zəngəz.qəzası) Andranikin olmasından istifadə edərək, tez-tez müsəlman kəndlərinə basqınlar etmələri, soyğunçuluqlarla məşğul olaraq, hamını cinsindən və yaşından asılı olmayaraq öldürmələri haqqında Zəngəzur qəza rəisi Məlik-Namaz-Əliyevin Raportu.

3.Zəngəzur qəza rəisinin 3№li, 12 ""ya 1918- il tarixli Raportu. Ermənilərin Andralinikin başçılığı altında basqınları haqqında: Rut, Darabas, Aqadu, Vaqudu kəndlərində və müsəlmanların qarışıq yaşadığı Arıklı, Şükür, Məlikli, Pulkənd, Şəki, Qızılcıq Qara-Kilisi, İrlik, Paxlilu, Darabas, Kürdlər, Xotanan, Sisyan, və Zabazadur kəndlərinin müsəlman hissələri yandırılıb. Qaça bilməyən kişi, qadın və uşaqlardan ümumilikdə 500 nəfər öldürülüb. Əsir düşən qoca erməninin sözlərinə görə Andranik kəndi yerli (zəngəzur) ermənilərinin xahişinə əsasən yandırıb.

3. Gəncə Qəza Rəisinin 12 settyabr 1918- ci tarixli 2565№li raportu.

Erməni respublikasının qoşun başçısı "Yapon"ləğəbli ermənin rəhbərliyi altında Şərur-Dərələyəz müsəlman rayonunun darmadağın edilməsi və 9-cu sahənin Türkiyədən gələn qaçqın ermənilər üçün təmizlənməsi barədə müsəlman əhaliyə xəbərdarlığın edilməsi.

4. Gəncə quberniya dəftərxanasının 12 noyəbr 1918-ci il tarixli, 7562№li təliqəsi. Andranik tərəfindən 9-cu sahənin müsəlman əhalisinin tərk silah edilməsi və vergilərin yığılması barədə.

5. Tərtərdən qəza rəisi Məlik-Abbasovdan 108 №li 24 noyabr 1918-ci il tarixlə teleqram.

500 nəfərdən ibarət əsgərlərlə Dövlətli və Bazarkənd ermənilərinin Quturlulara basqın edərək, ümumi dəyəri 1,2milyon rubl həcmində taxılla və bir çox başqa əmlaklarla yüklənmiş 210 öküz və atların aparılması barəsində. Ağdərə erməniləri isə qalayçirlilərin 83 baş malını qaçırdıb apardı.

6. Gəncə Qubernatorunun 24 noyabr 1918-cu il tarixli, 60 nömrəli teleqramı.

Keçmiş Novobayazit qəzasının 9-cu sahəsində Toxuca kəndinin erməni qoşunları tərəfindən bombalanması və Qazax qəzasının 4-cü sahəsində həmin erməni qoşunlarının şkixlilərdən təslim olumasını tələb etmələri barədə.

8.Gəncə Qubernatorunun 8 dekab 1918-ci il tarixli, 8459 №li təqdimatı.

Erməni quldurlarının Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzur qəzalarındakı talanları və hər cürə vəhşilikləri barəsində.

9.Gəncə Qubernatorunun 13 dekab 1918-ci il tarixindən 161 №li teleqramı.

Cəbrayıl və Zəngəzur qəzalarında müsəlman kəndlərinə ermənilərin kütləvi hücumları və hər şeyin yandırılıb kül edilməsi, hamının qılıncdan keçirilməsi barədə.

Dekabrın 10-da Ariş kəndinə basqın ediblər, mal qaranı qaçırdıb, yerli əhalini atəşə tutublar. Dekabrın 11-də Şuşanın altındakı yolda ermənilər qətl hadisəsi törədib, quldurluq edib, poçtu dağıdıblar.

10. Zəngəzur qəza rəisinin II de-çabr 1918-ci il tarixli teleqramı.

Müsəlmanların ingilis-fransız nümayəndəliyinin xəbərdarlığı nəticəsində öz mövqelərini tərk etmələrinin arxasınca Andranikin komandanlığı altında erməni qoşunlarının qəfildən hücuma keçərək, qonşu müsəlman kəndlirinə basqın etməsi, yerli dinc əhalini cinsindən və yaşından asılı olmayaraq kəsib-doğraması, meyitlərin ələ salınması, dekabrın 9-da 12-dən yuxarı kəndin od vurulub yandırılması, 10 qadının hal hazırda erməni əsirliyində olması barədə.

11. Andranikin dəstəsinin yerli ermənilərlə birlikdə Zəngəzurda müsəlman kəndinə Qalandərəsində hücum edərək, müsəlmanları qırıb tökməsi və vəhşiliklər törətməsi barədə Gəncə Qubernatorunun 14 dekabr, 1918-ci il tarixli, 70 №-li əmri.

12.Zəngəzur Qəza Rəisinin 26 oktyabr 1918-ci il tarixli 655 №-li raportu. Ermənilərin müsəlman kəndlərinə basqınları barədə.

1. Gəncə Qubernatorunun 11 dekabrdan 303 nömrəli teleqramı. - Zəngəzur Qəza Rəisinin məlumatına görə dekabrın 19-da Andranikin dəstəsi yerli ermənilərlə birlikdə 9-cu sahədə Nuavord kəndini mühasirəyə alıblar, müsəlmanların formal surətdə tamamilə qırılıb qurtarılması həyata keçirilir. Darası yaxınlığında əvvəlki kimi döyüş gedir.

2. Cəbrayıl və Zəngəzur qəza rəisi Namazaliyevdən teleqram.

İngilis-Fransız nümayənədləri çıxıb getdikdən sonra dekabrın 10-da ermənilər müsəlmanların Şəbədiyə və beşinci sahənin başqa kəndlərinə hücum etdilər. Əsir ermənilər belə ifadə verirlər ki, bütün hadisələrin günahkarı Andranikdir: çaya qədər bütün torpaqları o, Ermənistana birləşdirmək qərarına gəlib, buna görə də döyüşdən boyun qaçırdan erməniləri asır. Kim-Dərəsi yanında döyüşlər gedir.

3. Gəncə Qubernatorunun 19 dekabr 1918-ci il tarixli, 8979 №li təqdimatı.

Cəbrayıl Qəza Rəisinin göndərdiyi məlumata görə ermənilər hərbi əməliyyətlara hazırlaşırlar. Qüvvələri Şuşaya tərəf çəkərək, onlar müsəlmanlara hücum edirlər. Zəngəzurun böyük bir hisəsi qırılıb məhv edilmişdir. Erməni quldur dəstələri kəndləri dağıdır, talayır, insanları öldürür, mal-qaranı qaçırdırlar.

Şuşa Qəza rəisinin göndərdiyi məlumata görə ermənilər müsəlman kəndlərini mühasirələrə alırlar.

4. Cəbrayıldan 28 dekabr, 1918-ci il tarixli 225 №-li teleqram. Naxçıvan və Ordubad şəhərlərinin sakinlərindən: İravandan gələn 25 min erməni 8 müsəlman kəndini mühasirəyə alıblar, silahları müsadirə ediblər, əhalini özlərinə tabe etdiriblər. Zəngəzur erməniləri də bizə hücum edib.

5. Zəngəzur Qəza Rəisinin 26 noyabr, 1918-ci il tarixli raportu.

Ermənilərin Sisyan mahalının müsəlmanlarını qırıb qurtardıqdan sonra başqa yaşayış sahələrində müsəlmanları qırmaqda davam edirlər.

Mehri dərəsinin erməni dəstələri müsəlmanların kəndlərini darmadağın edib, talan etdilər - 70 dım., Tey -75 dım., Mülk - 30 dım., dım., Bənövşə-Puş -5 dım., Tağamir -25 dım., -100 dım., və Vartapuzur-II -60 dım. Və sakinlərdən 200 nəfəri doğradılar, təzə məlumatlara görə isə artıq ermənilər Əliyanlı kəndinə hücum

ediblər. Orada döyüşlər gedir. Ondan başqa ermənilər müsəlman kəndlərinə üç məntəqədə hücum ediblər: 1) Avənsürə, 2) Dərili icması, 3) Razdarda.

6. Gəncə Qubernatorunun 26 sentyabr 1918-ci il tarixli 5623 №li təqdimatı.

Cavanşir qəzasının Yuxarı və Aşağı erməni kəndlərinin sakinləri özlərindən aşağıda yaşayan müsəlman kəndlərinin əhalisinə kanalın yuxarı hissəsindəki təmir işlərini aparmağa imkan vermirlər.

1919 il, iş №65, IV Şöb.

19. İrəvan Quberniyasının Novobəyazit qəzasının Daşkənd sakinlərinin xahişnaməsi. Məşədi Qasım Hacı Kərim oğlu və Böyük ƏliHacı Mirzə Ələkbər oğlundan Daxili İşlər Nazirinin adına, 23 yanvar, 1919-cu ildən.

Ermənistan hökuməti qoşunlu məmurların timsalında müsəlman kəndlərindən: - 1) Zağalı, 2)Daşkənd, 3)Zor, 4)Hüseynqulu Ağalu, 5)Sarıal, 6) Böyük- Qaraqoyunlu, 7) Kiçik-Qara-Qoyunlu, 8)Aşağı Narçomor, 9) Təzə Kəti, 10)Kəlbaşı-II, 11) Kama-bəlal, 12)As-Kdisa, 13)Zoranbil, 14) İnakə-Dağ, 15) Sultan-Əli-Qışlağı, 16)Oğruca, 17) Böyük-Möhrə, 18) Bala-Möhrə, 19) Kəsəmal, 20)Şişxaş, 21) Sadana-xaç və 22) Qızıl-Paykanı soyub talayaraq, əhalini dilənçi gününə qoyması haqqında. Qoşunlar hər kəndə beş altı gün qalaraq, hər şeyi tar-mar edib qurtardıqdan sonra o biri kəndlərə basqına keçirlər.

Sonuncu evinə kimi aşağıdakı kəndlər yandırılıb:1) Örkülü, 2) Alçalu, 3) Kəminlu, 4) Yarbuzlu, 5) Qanlu, 6) Kərkibaş, 7) Çixirlu, 8) Kefli-Kürdü və 9)Böyük Mazrı.

1919 il, iş №18, IV Şöb.

20. Gəncə Qubernatorunun 6 yanvar 1919-cu il tarixli 152/10 №li teleqramı.

Zəngəzur Qəzasının müdiri teleqraf edir ki, ingilis-fransız missiyasının Gorusa gəlməsinə baxmayaraq, ermənilər bütün qəza boyu müsəlman kəndlərinə hücum edirlər, sakinləri doğrayır, əmlaklarını talan edir, evlərini yandırırlar. Basqınlar nəticəsində aşağıdakı kəndlər talan edilib və yandırılıb: Razdərə, Askarla, Valyələr. Kiçiklu, Sobi və başqa kəndlər isə atəşə tutulurlar.

21. Gəncə Qubernatorunun Ordubad şəhərinin sakinlərindən Salman bəy Əsgərxanov, Məşədi Hüseyn İsmayılov və Mirzə cabbar Həsənəliyevin xahişnaməsinə 22 dekabr 1918-ci il tarixli 9181 №li yazısı.

Xahişlə müraciət edənlər kəndləri talayan, viran qoyub yandıran və dinc əhalini qırıb öldürən Andranikdən və erməni qoşunlarından şikayət edirlər.

22. Azərbaycan Poçt-Teleqraf Dairəsinin teleqramı ilə Gəncə Qubernatorunun 28 dekabr 1918-ci il tarixli 9403 №li təqdimatı.

Dövlət teleqraf xətlərinin zədələnməsi, təmir işləri aparan adamların işlərinə ermənilər tərəfindən mane olunması və onların atəşə tutulması barədə.

23. Cavanşir qəza rəisinin Gəncə Qubernatoruna 6 dekabr 1918-ci il tarixli 1200 №li məlumatı. Dekabrın birinə keçən gecə ermənilər Qarapirullu kənd sakini cümşüd Bəy Belibəyovun yatağına basqın edərək, onun 1350 baş qoyununu və 4 atını qovub aparıblar.

Dekabrın 2-də Dovtanlu kəndinin erməniləri elə həmin kəndin müsəlman əhalisini mühasirəyə alaraq, talayıblar, üç nəfəri öldürüblər, qalanları qaça biliblər; yenə dekabrın ikisində Qalyataq ermənilərinin quldur dəstəsi Sırxavənd kəndinə hucum edərək, 122 baş buynuzlu mal-qaranı, 48 baş keçini qovub aparıblar; elə həmin kəndin quldur dəstəsi qalyataqlı, canyataqlı və kaseptli ermənilərdən daha da gücləndirilmiş tərkibdə iki dəfə Qalayçılar kəndinə basqın edərək, 105 baş buynuzlu mal-qaranı sürüb apardı. Ümumiyyətlə ermənilər sistemli surətdə quberniyanın dağlıq hissəsindən müsəlmanları sıxışdırıb çıxarmağa çalışırlar.

24. Zəngəzur Qəza Rəisinin 114 №-li teleqramı: Andranikin başçılığı altında ermənilər tərəfindən, ingilis-fransız missiyasının vədlərinin əksinə olaraq, otuzdan yuxarı müsəlman kəndi yandırılaraq məhv edilib, əmlakları isə qarət edilmişdir. Kəndin qaçmağa macal tapmayan sakinləri vəhşicəsinə doğranılmışdır. Yanvarın 3-də belə bir məlumat alınıb ki, ermənilər 4-cü sahənin Razdar kəndini yerlə yeksan edərək tamamilə dağıtdılar, əhalinin bir hissəsini qırdılar. - Ermənilər bütün günahları Andranikin və onun qoşun dəstələrinin üstünə atırlar.

25. Zəngəzur qəza rəisinin Gəncə Qubernatoruna 15 dekabr 1918-ci il tarixli 745 №li raportu. Qonşu kəndlərin erməniləri müsəlman kəndlərindən Əlidərəni,

Marzaqatı və Tuqutu darmadağın etdərək, od vurub yandırdılar; Nüvədi və Eynazur kəndləri isə hal-hazırda müharisəyə alınıb və atəş altındadır.

26. Tərtərdən teleqram, Cavanşir qəzasının Qəza Rəisindən, №9, 24 yanvar.

Yanvarın 19-da ağdərililər - ermənilərdən Yedigar Karapetov, Ambarsum Sarkisov naqravendli Alban Sadıq oğlunu öldürüb, soydular.

27. Ağdaşdan teleqram Zəngəzur Qəza müdirindən tarixsizdir yanvar ayından, 1919-cu il №349.

Kuşilu, Acılu, Arkazu, Aksarlu kəndləri ermənilər tərəfindən yanvar ayının ilk günlərində darmadağın edilib, Şaharçalan, Açaquz Oxçi kəndləri bir o qədər də uzun çəkməyən mühasirədən sonra ermənilər tərfindən ələ keçirdilib, tüfənglər yerli əhalidən yığışdırılıb.

Kirataq, Mollalu, Kovnu, Karabaği, Qabarlu, Kiçi, Başbaki, Mahmudlu, Keyddaşik, Kaqaçatu, Kururut, Qaçyap, Kire, Ağı-bacı kəndləri ermənilər tərəfindən mühasirəyə alınıb. Mühasidə Andranikin dəstəsindən yüz nəfərdən ibarət bölük iştirak edir.

28. Gəncə Qubernatorunun 3 yanvar 1919-cu il tarixli 80 №li teleqramı.

cəbrayıq Qəza Rəisi teleqraf vurur ki, Qara-kənd erməniləri yanvar ayının birində Ağdam-Karyaqino yolunda canlarını qurtarmaq üçün qaçan müsəlmanları qətlə yetiriblər.

29. Zəngəzur Qəza Rəisinin - Gəncə Qubernatoruna 29 dekabr 1918-ci il tarixli 809 №li raportu.

Aqarak kəndinin erməniləri müsəlman kəndi Xaştabı atəşə tutub, 60 baş iri buynuzlu mal-qaranı qovub aparıb, xaşdabalılardan bir nəfər öldürülüb, ikisi yaralanıb.

30. Zəngəzur qəza rəisinin General-Qubernatora 29 dekabr 1918-ci il tarixli 795 №li raportu. Acakənd, Arpagədik, Tesxarab və başqa erməni kəndlərinin sakinləri müsəlman kəndlərindən Dataqat və Firicana hu-m ediblər, onları atəşə tut-r, beş nəfəri öldürərək, 48 baş iribuynuzlu mal-qaranı və 25 keçini aparıblar.

31. Zəngəzur qəza rəisinin Gəncə Qubernatoruna 29 dekabr 1918-ci il tarixli 816 №li raportu.

Qonşu kəndlərin erməniləri mal-qaranı qovub aparmaq məqsədilə mamazi sürüsünə basqın ediblər, lakin geri otuzdurulublar.

32. Şuşa Qəza Rəisinin Gəncə Qubernatoruna 26 yanvar 1918-ci il tarixli 112 №li raportu.

Ermənilər, Doxraz və Qorov kəndlərinin sakinləri Abdal kəndinin sakinlərinə meşəyə odun dalınca getmələrinə və mal-qara otarmaqlarına əngəl törədərək və Armenak Baliyans adlı erməni dəstəsinə başçılıq edən komandir yerli əhalidən erməni qoşunları üçün 200 pud taxıl tələb edir.

33.Cavanşir Qəza Rəisinin (tarix yoxdur) dekabr 1919-ci il tarixli 44 №li teleqramı.

Yanvarın 3-də otuz nəfərdən ibarət erməni quldur dəstəsi başlarında cunya, Xaçatur və Bukan olmaqla Kəpəzlilərin heyvanını qaçırmağa cəhd edib, bir müsəlman yaralanıb, bir inək güllələnib.

34. Şuşa Qəza Rəisinin Gəncə-ts Qubernatoruna 28 yanvar 1919-cu il tarixli 165 №li raportu.

1918-ci il dekabrın 31-də Qarkənd kəndinin erməniləri tərəfindən iki müsəlman qətlə yetirilib və Ağdam-Karyagino teleqraf xətti zədələnib.

Quzey və Güney-Çartaz kəndlərinin erməniləri Veysəlli müsəlman kəndinin bağlarında bütün ağacları kəsib doğrayaraq, torpağı şumlayıblar.

1918-ci il, dekabrın 31-də 30 süvari və 100 piyadadan ibarət erməni dəstəsi başlarında Quzey-Çartaz kəndinin sakinləri Qaraxan Vakimov, Me-liksetem Babayev, Osip Xaçiyev və Güney-Çartazlı Arutyun Arutyunov olmaq şərtilə, Veysəlli icmasının kəndxudasına Tövlə-Düzü deyilən yerdə saman yığarkən hucum ediblər, atışma baş verib.

1919-cu ilin yanvar ayında ermənilər - Qoqa və Çirakuz kənd sakinləri böyük silahlı dəstələrlə Kovşatlu kəndinə basqın ediblər və araya atışma düşüb. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, İkinci polis sahəsinin erməniləri daima qonşu müsəlman kəndlərinə hucumlar edir, onları soyub talayırlar.

35. Gəncədən Gəncə Qubernatorunun 6 fevral 1919-ci il tarixli 136 №li teleqramı.

Ermənilər İrəvan Quberniyasının Novobəyazit qəzasının müsəlman kəndlərini soyub talayırlar, kişiləri öldürür, qadınları apararaq, zorlayıb buraxırlar.

36. Gəncə Qubernatorunun 14 fevral 1919-ci il tarixli 394 №li teleqramı.

311 nəfər müsəlman, Zağalı kənd sakinləri bəyan ediblər ki, yanvarın 28-də onların kəndləri erməni qoşunları tərəfindən məhv edilib, müsəlmanlardan 15 nəfər öldürülüb, sağ qalanları isə Azərbaycana qaçırlar.

37.Şuşa Qəza Rəisinin Gəncə Qubernatoruna 318 yanvar 1919-cu il tarixli 159 №li raportu., Günorta üstü saat 3-də, Nuker, Malıbəyli kənd sakini cəlal cümşüd oğlu Şuşadan Xaçdaş adlı yerə gedən yolda silahlı ermənilər tərəfindən soyulub, onun atı və arabasını ermənilər əlindən alıb, Daşkəndə aparıblar.

38. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 18 yanvar 1919-cu il tarixli 3 №li raportu.

11918-ci il dekabrın ermənilər 30-da Bollaraçur kəndinə oranı dağıtmaq məqsədi ilə basqın ediblər, lakin müsəlmanlar tərəfindən geri otuzdurulublar, bir müsəlman öldürülüb, ikisi yaralanıb və 40 baş iribuynuzlu mal qara, 20 baş xırda buynuzlu mal qara qovulub aparılıb.

39. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 18 yanvar 1919-cu il tarixli 2 №li raportu.

3-cü sahədə qonşu kəndin erməniləri Emzalu kəndinə basqın ediblər, onu atəşə tutublar, lakin geri otuzdurulublar.

40.Cəbrayıl Qəza Rəisinin Gəncə Qubernatoruna 8 yanvar 1919-cu il tarixli 21 №li raportu.

Birinci sahədə ermənilər, Edillu, Axillu və Kelerakuç kəndlərinin sakinləri, artıq yerli əhalisi onları daim hədələyən erməni qonşularının ucbatından atıb getdikləri Düdükçu kəndinin müsəlmanlar yaşayan hissəsini mühasirəyə alaraq, taladılar, darmadağın etdilər, yiyəsiz qalan əmlakı daşıdılar və qalanlara od vurub yandırdılar. Dəyən ziyan 355.665 rubla qədərdər.

41. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 28 yanvar 1919-cu il tarixli 180 №li raportu.

Beşinci sahədə Kiqi-Doralı dərəsində yerləşən Kirətağ, Kovşut, Qarabaş, Baharlu, Kiqi, Daşbaşı və başqa müsəlman kəndləri erməni quldur dəstələri və Andranikin dəstələrindən yüz nəfərdən ibarət bir bölüyün iştirakı ilə mühasirə vəziyyətində saxlanılmaqdarır. İkinci sahənin erməni kəndi Gerinzorun kənd yolunda pusqu quran ermənilər Ağarlu və Malxələf dərəsi ilə yol gedən müsəlmanları atəşə tuturlar.

42. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 4 fevral 1919-cu il tarixli 229 №li raportu.

4-cü sahənin pristavı tərəfindən Gük-Qışlaq kəndini sakinlərindən Abbas Cavad oğlu və Nəbi Nəcəfli və bir də Kedekli kənd sakini Niyazəli Şükür oğlu Katar zavodlarına ordakı erməni Milli Şurasına göndəriliblər. Onlardan yalnız döyülmüş və yaralanmış Niyazəli Şükür oğlu geri qayıdıb, iki nəfərinin isə aqibəti məlum deyil, onlar atları ilə birlikdə orada saxlanılıblar.

43. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 28 yanvar 1919-cu il tarixli 138 №li raportu.

3-cü sahədə ermənilər, Akarak və Qarababa kəndinin sakinləri bu il yanvarın 21-də Xoştabanlıların qoyun sürüsünə hücum edərək onu qovub aparmağa çalışıblar, lakin geri otuzdurublar.

44. Zəngəzur Qəza Rəisinin 21 yanvar 1919-cu il tarixli 94 №li raportu.

1981-ci il dekabrın sonunda Qaraçiman kəndi Akrak, Sirkatak v Ucanis erməni kəndləri tərəfindən darmadağın edilib, qeyd edirik ki, yeddi müsəlman öldürülmüşdür.

45. Cavad Qəza Rəisinin Gəncə Qubernatoruna 15 fevral 1919-cu il tarixli 301 №li raportu.

1919- ic yanvarın otuzunda can-Yataq və Gül-Yataq kəndlərinin sakinlərindən ibarət bir neçə silahlı erməni gənclərinin dəstəsi mal-qaranı qovub aparmaq məqsədilə Qalayçılar müsəlman kəndinə basqın edərək, hucuma keçiblər, lakin itkisiz geri otuzdurulublar.

46. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 4 fevral 1919-cu il tarixli 221 №li raportu.

İkinci sahənin Geranzur erməni kəndinini sakinləri silahlardan atəş açmaq gücünə Qaraqurdluları öz kəndindən qovaraq, onların bağlarındakı ağacları doğrayaraq, məhv edirlər, əhaliyə kəndə girib çıxmağa imkan vermirlər; bütün bunlardan başqa isə Malxala kəndinə Akara çayından gedən yolu aramsız olaraq bağlayırlar, müsəlmanların sərbəst gediş-gəlişinə əngəl törədirlər.

47. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 4 fevral 1919-cu il tarixli 222 №li raportu.

İkinci sahədə ermənilər, Dolqi və Xazabut kəndinin sakinləri Müsulmanyarlılarla atışmaya başlayaraq, həmin kəndin sakinlərinə məxsus 9 taya otu yandırdılar.

48. Zəngəzur Qəza Rəisinin Gəncə Qubernatoruna 4 fevral 1919-cu il tarixli 231 №li raportu.

4-cü sahədə ermənilər, naməlum qonşu kəndlərin sakinləri, Karayan kənd sakini Eyvaz Heydər oğlunun otlaq sahəsinə hucum ediblər, onu öldürüb 16 baş iri buynuzlu mal-qarasını və bir eşşəyini qovub aparıblar.

Budan başqa ermənilər əvvəlki hucumları nəticəsində yiyəsiz qalmaş müsəlman kəndlərinə təkrar qayıdaraq, basqınlardan sağ qalan evləri dağıdırlar.

49. Zəngəzur Qəza Rəisinin 2 fevral 1919-cu il tarixli №li (nömrəsiz) dindiriş protokolu.

Dovorus kənd sakini Əmir Muxtar oğlu belə ifədə verib ki, o Dortalılı Əliyev Rüstəm oğlu ilə, müsəlman kəndləri dağıdılıb talan edildikdən sonra, Xotanam kəndinin ermənilərinin yanında nökərçiliyə qaldılar. Bu yaxınlarda ermənilər Gorusdan kəndi müsəlmanlardan təmizləmək barədə göstəriş alıblar - ya öldürmək, ya da ki, müsəlman rayonlarına qovmaq. Buna görə də onun yoldaşı Əliyev Rüstəmi öldürdülər, onu isə uşaq olduğu üçün rəhm etdilər, sonra isə o özü qaçıb canını qurtadı.

50. Gəncə Qubernatoru Q. Daxili İşlər Nazirinə 3 mart 1919-cu il tarixli, 2945 №li təqdimatı.

Məşədi İsa Musa Kərbala oğlunun və Qazax Qəza Rəisinin verdiyi məlumatdan göründüyü kimi erməni qoşunları Göycə gölünün şərq sahillərində

yerləşən Basarkeçər rayonunun müsəlman kəndlərində mənzillərə yerləşdirilməyə başlanılıb. Bu proses həmçinin əhalinin əlindən hər şeyin: çörək ehtiyatlarının, mal-qaranın, yemlərin yığışdırılması ilə müşahidə olunur. Əhali naəlac bir vəziyyətdədir. Çarəsizlikdən etiraz edənləri ya oldürürlər, ya da ki, həbs edirlər.

51. Gəncə Qubernatorunun 2 mart 1919-cu il tarixli 352 №li teleqramı.

Novobəyazit qəzasının Daşkənli, Şorrica, Nevksiti, Siri Yaqub, Qaraqanlı, Blicə, Qayabaşı, və Qoşabulaq kəndlərinin sakinləri Məşədi Qasım, Abasəli Məhərrəm Tağı oğlu şikayət edirlər ki, erməni qoşunları onları mütamadil olaraq talayıb soyur, əllərində nə varsa hamısını - taxılı, yemi, silahı müsadirə edirlər; qızların və qadınların çoxu aparılıb, taleləri isə məlum deyil.

52.1919-cu ilin mart ayının altısında № 3162 ilə Gəncə Qubernatoruna təqdim edilən İravan Quberniyasının Novobəyazit qəzasının Göycə mahalının 26 kəndinin ərizəsi, bu ilin 2 mart tarixindən.,

1919-ci ilin fevral ayının 28-də müsəlman kəndlərinə romistr Silikov, kornet Xaçaturov və adyudantın dəstəsi gəldi və hər kənddən 750 pud taxıl, 100 pud ot tələb etdi; xalq bu miqdarda azuqələrinin olmaması üzündən biyarın götürlməsin xahiş edirdi; bu halda etirazlardan qeyzlənən Silikov qırmancla adamları döyməyə və söyüş söməyə başladı, o, hətta Zot kəndinin sakini Məci Süleyman oğlunu güllələdi, qalan zabitlər isə yenə dörd müsəlmanı güllələdi. Həyacanlanmış xalq hiddətlənərək, ermənilərin üstünə atılıb dörd zabiti və 15 əsgəri də öldürdülər. Bu hadisə Zod kəndində olub.

Martın 2-də ermənilər Qoşa-Bulaq, Taşkənd və Böyük-Mərzəni kəndini ələ keçirməyə cəhd göstərdilər.

53. Gəncə Qəza Rəisinin Gəncə Qubernatoruna 28 aprel 1919-cu il tarixli 1007 №li raportu.

Bu ilin aprel ayının 21-də Erkeç kəndindən 15 silahlı erməni Todan kənd icmasına məxsus altı camış, iki inək və bir atdan ibarət mal-qaranı sürüb apardılar, atışma baş verdi. Mal qara sürülüb aparılan günün səhərisi zərərçəkənlər Erkeç kəndinə yola düşdülər, mal-qaranın qaçırdılmasında əli olmuş cuma Ovanesyans,

Saşa Mamikonov, Saşa Xaçaturyans və Kostya Mixayelyans zərərçəkənlərdən yalnız dörd camış və bir inək qaytərmaq üçün 200 rubl aldı.

Daxili İşlər Naxirliyi Dəftərxanasının 4-cü Bölməsinin Rəisi - imza.

Kargüzar - imza.

Düzgündür: Daxili İşlər Naxirliyi Dəftərxanasının Kargüzarı - imza.